AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

5 NOYABR 2023-cü il BAZAR № 243 (7713) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ



*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*

# İnam və etimadın uğur zirvəsi: Zəfər

***Ümummilli lider Heydər Əliyevin ən böyük arzularından biri Qarabağın işğaldan azad olunması idi. 2020-ci ildə Ali Baş Komandan İlham Əliyevin güclü iradəsi və qətiyyəti sayəsində Ulu Öndərin bu arzusu da həyata keçdi, torpaqlarımız işğaldan azad olundu, Azərbaycan xalqı məğlub xalqdan qalib xalqa çevrildi. Prezident İlham Əliyevin yaratdığı yeni reallıqlarla bu gün Azərbaycan gələcəyə nikbin baxa bilir.***

Müstəqilliyini günbəgün, ilbəil möhkəmləndirən Azərbaycan dövlətinin tarixində Prezident İlham Əliyevin qızıl hərflərlə yazdığı şanlı səhifələrin sayı getdikcə artır. Əsrə bərabər 20 ilin zirvəsində, təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır. Prezident İlham Əliyevin uzaqgörən siyasətinin əsasında Azərbaycanın hərtərəfli inkişafı, xalqımızın firavan həyatı, ölkənin 30 ilə yaxın pozulmuş ərazi bütövlüyünün bərpası dayanırdı. Buna görə hər bir atılan addım Qarabağın azadlığına yaxınlaşdırırdı. 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müntəzəm müraciətləri Azərbaycan xalqını ayağa qaldırdı, onu yumruq kimi sıx birləşdirdi, müharibənin gedişatına və taleyinə güclü təsir göstərdi. Hər bir müraciət növbəti qələbələrin müqəddiməsinə çevrildi. Bütün istiqamətlərdə qazanılan uğurların, əldə edilən nailiyyətlərin bir hədəfi var idi - işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi və Azərbaycanın bütün sərhədləri boyunca bayrağımızın dalğalanması. 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və Ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin gərgin əməyinin nəticəsində Azərbaycan ərazi bütövlüyünə qovuşdu, xalqımız dünyada mübariz, döyüşkən və müzəffər xalq kimi tanındı.

Vətən müharibəsinin nəticələri Prezident İlham Əliyevin Ali Baş Komandan kimi qətiyyəti, siyasətçi kimi iradəsi, diplomat kimi müdrikliyi və humanist davranışı ilə torpaqlarımızın işğaldan azad edilməsinə nail olmaqla həm xalqı qalib olmaq arzusuna çatdırdı, həm də minlərlə insanın həyatını xilas etdi. Azərbaycan həm döyüş meydanında, həm də siyasi arenada öz gücünü, qüdrətini bütün dünyaya göstərdi. Vətən müharibəsi dövründə dövlət başçısı informasiya cəbhəsində dünyanın aparıcı media qurumlarına müsahibələri ilə Ermənistanın bütün təbliğatının üzərindən xətt çəkdi. Prezident İlham Əliyev istər xalqa müraciəti, istər tviter paylaşımları, istərsə də bu müddətdə verdiyi 30-a yaxın müsahibəsi ilə Azərbaycanın haqq səsini bütün dünyaya bəyan etdi. Prezident İlham Əliyev milli şüara çevrilmiş "Qarabağ Azərbaycandır!" ifadəsi ilə artıq bütün Qarabağın azad edildiyini və Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulduğunu elan etdi.

Prezident İlham Əliyev Azərbaycanın Vətən müharibəsində qələbəmizin tacı olan Şuşada görkəmli dövlət xadimi Heydər Əliyevin 100 illiyi münasibətilə xalqa müraciətində ulu öndərin Qarabağ və Zəngəzuru azad görmək arzusunun gerçəkləşdiyini vurğuladı.

**(davamı 4-cü səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Dövlət başçısı Heydər Əliyevin sovet dövründəki rəhbərliyini və Azərbaycanın inkişafına verdiyi töhfəni yüksək qiymətləndirərək qeyd edib ki, Azərbaycan xalqının üzləşdiyi faciələr Heydər Əliyevin istefasından sonra başlayıb və əgər o, hakimiyyətdə qalsaydı, erməni millətçiləri Qarabağı ilhaq etməyə cəsarət etməzdilər: "Qarabağı azad görmək Heydər Əliyevin və bütün dünya azərbaycanlılarının əsas arzusu idi. Biz bu arzunu, Azərbaycan xalqının arzusunu yerinə yetirdik. 2020-ci il 8 noyabr tarixdə əbədi qalacaq. O gün mənə, bax, bu meydandan Şuşanın azadlığı ilə bağlı hərbi raport veriləndən sonra, bu binanın üstünə Bayrağımız qaldırılandan sonra atamın məzarını ziyarət etdim və ürəyimdə dedim ki, "Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!". Ondan sonra Şəhidlər Xiyabanını ziyarət etdim, şəhidlərimizin ruhu qarşısında baş əydim, ürəyimdə dedim ki, qanınız yerdə qalmadı".

Bu il sentyabrın 19-da rəşadətli Ordumuzun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərinin qısa müddətdə öz müsbət nəticəsini verməsi, qarşıya qoyulan hədəflərə cəmi 24 saatda nail olunması Azərbaycanın növbəti tarixi Qələbəsidir. Bu, bir daha göstərir ki, Azərbaycan regionda prosesləri diktə edən tərəf, sülh və sabitliyin əsas təminatçısıdır. Bu,



# İnam və etimadın uğur zirvəsi: Zəfər

eyni zamanda Prezident İlham Əliyevin qətiyyəti, müdrik və uzaqgörən siyasətinin məntiqi nəticəsi, dövlətimizin başçısının ətrafında "dəmir yumruğ"a çevrilmiş xalqımızın daha bir tarixi Zəfəri oldu.

Müzəffər sərkərdə xalqa müraciətində xüsusi qeyd etdi ki, Ulu Öndərin əziz xatirəsinə hörmət edərək biz, bax, bu Zəfərə, bu Qələbəyə hər zaman layiq olmalıyıq, hər birimiz, hər bir yerdə. Bu Zəfər, eyni zamanda hər birimizin üzərinə əlavə məsuliyyət qoyur. Biz bu Zəfərə layiq olmalıyıq. Əminəm ki, belə də olacaq. Azərbaycan Avrasiyada mühüm nəqliyyat qovşağına çevrilib, onun ərazisindən Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizi keçir və neft-qaz sənayesi onun iqtisadi inkişafı üçün çox vacibdir.

Prezident İlham Əliyev ali kürsüyə çıxdığı ilk gündən bəyan etmişdi ki, Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün var gücü ilə çalışacaq. Dediyi sözə, verdiyi vədə sadiq qalaraq ölkəmizi dünyanın ən güclü dövlətlərindən birinə çevirdi. Bu, bir siyasət adamının böyüklüyünün əsas göstəricisidir. Prezidentimizin şəxsiyyətinin böyüklüyü həm də ondadır ki, xalqı milli amallar və məqsədlər naminə öz ətrafında birləşdirə, sabaha inam yarada bildi. Ötən illər ərzində ölkəmizdə mövcud olan ictimai-siyasi sabitliyin və vətəndaş həmrəyliyinin əsasında da məhz bu birlik və inam dayanır. Xalqın öz Liderinə sonsuz inamı, Liderin isə öz xalqına arxalanması Azərbaycanın qazandığı bütün uğurların istinad nöqtəsidir.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadiyyatı güclənir, Qarabağda bərpa-quruculuq fəaliyyəti tam gücü ilə davam edir və sosial proqramlar həyata keçirilir. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan tezliklə Qarabağı cənnətə çevirəcək və öz ata-baba yurdlarından didərgin düşən keçmiş məcburi köçkünlər təhlükəsiz şəkildə evlərinə əbədi olaraq qayıdacaqlar.

Heç şübhəsiz ki, qarşıda hələ daha böyük işlər və qələbələr bizi gözləyir. Bu gün əsas hədəflərdən biri Zəngəzur dəhlizinin ən qısa vaxtda açılmasıdır. İlham Əliyevin rəhbərliyi, qətiyyətli siyasəti nəticəsində Zəngəzur dəhlizinin açılacağı gün heç də uzaqda deyil.

**Mustafa KAMAL,**
**"Respublika".**